# İdman xəbərləri

## Avropa kubokunda iki medal



İtaliyanın Linyano şəhərində gənc cüdoçular arasında keçirilən Avropa kubokunda "Qəbələ" İdman Klubunun üzvləri də uğurla çıxış edib. Klubumuzun iki cüdoçusu turniri mükafatçılar sırasında başa vurub. 55 kq çəki dərəcəsində çıxış edən Rövşən Əliyev və Rəşxan Baxşəliyev fəxri kürsüyə qalxıblar.

Rəşxan Baxşəliyev finalda gümüş, Rövşən Əliyev isə bürünc medala yiyələnib.

## Qızıl medala sahib olub

Türk Şurası Universitet İdman Oyunları çərçivəsində keçirilən cüdo turnirinə start verilib. "Sərhədçi" İdman Olimpiya Kompleksində təşkil olunan yarışın ilk günündə bütün çəki dərəcələrində medalçılar müəyyənləşib.

"Qəbələ" İdman Klubunun cüdoçusu Kəramət Hüseynov da fərqlənənlər sırasında olub. 60 kq çəki dərəcəsində çıxış edən idmançımız Azərbaycan, Türkiyə və Qazaxıstan cüdoçularının mübarizəsində bütün rəqiblərinə qalib gələrək qızıl medal əldə edib.

## Debütdə qələbə qazanıb

"Qəbələ" İdman Klubunun təmsilçisi Rafael Ağayev Karate Kombat təşkilatının üzvü olub. İdmançımız Full Kontakt karate üzrə döyüşlərdə debüt edib. 5 dəfə dünya, 10 dəfə Avropa çempionu ilk döyüşünə Macarıstanın paytaxtı Budapeştdə çıxıb.

Dominikan Respublikasının təmsilçisi Dionisio Qustavoya qalib gələn idmançımız debütdə ilk qələbəsini qazanıb.

# Rayon birinciliyi keçirilib

***Qəbələ Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə martın 30-da şəhər 2 nömrəli tam orta məktəbdə "Şahin" hərbi-idman oyunu üzrə rayon birinciliyi keçirilib.***

Yarışda rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək "Şahin" hərbi - idman oyununun keçirilməsində məqsədin məktəblilər arasında aparılan hərbi vətənpərvərlik tərbiyəsinin daha da gücləndirilməsi, şagirdləri hərbi-idman oyunlarına geniş cəlb etməklə onların ordu sıralarında xidmətə hazırlığının inkişaf etdirilməsindən ibarət olduğunu bildirib. Fəxri Soltanov "Şahin" hərbi-idman oyunu üzrə məktəbdaxili seçmə yarışların artıq yekunlaşdığını və bu gün oyunların ikinci mərhələsi olan rayon birinciliyinin keçirildiyini qeyd edib. İdarə rəisi çıxışının sonunda hər bir komandaya uğurlar arzulayıb.



Rayonun ümumtəhsil məktəblərinin VIII-X sinif şagirdlərindən ibarət 20 komandanın iştirak etdiyi yarış gərgin idman mübarizəsi şəraitində keçib. Yarışın əsasnaməsinə uyğun olaraq sıra hazırlığı səviyyəsinə baxış keçirildikdən sonra komandalar estafet mərhələsində mübarizələrini davam etdirib.

Yarışın nəticəsinə əsasən şəhər 4 nömrəli tam orta məktəbin komandası I yeri, Soltannuxa kənd tam orta məktəbin komandası II yeri və şəhər 3 nömrəli tam orta məktəbin komandası III yeri tutub.

Qalib komandalara gənclər və idman idarəsinin diplomları təqdim edilib.

Zaqatala rayonunda keçiriləcək zona yarışında rayonumuzu Qəbələ şəhər 4 nömrəli məktəbin komandası təmsil edəcək.

**Məhəmmədəli SƏFƏRÇİNOV,**
**gənclər və idman idarəsinin baş məsləhətçisi.**
**Səhrab UMUYEV (foto)**

# Halsızlığa qarşı şəfalı bitkilər

Halsızlıq az qala hər kəsin yaşadığı bir narahatlıqdır. Bu stressdən, günlük fəaliyyət yorğunluğundan, bəzi xəstəliklərdən qaynaqlana bilər. Əvvəlcə halsızlığa səbəb olan faktoru araşdırıb öyrənin. Stressdən və ya gündəlik fəaliyyətdən meydana gələn halsızlığı şəfalı bitkilərin köməkliyi ilə aradan qaldırın:

✦Pelinotu, quru hindiba, alma, adaçayı, cökə, kəklikotu, havlıcan, zəncəfil, turp toxumu və badam halsızlığı aradan qaldırmaq üçün ən yaxşı vasitələrdir.

✦Kəklikotu, şam iynələri, yosun, qoz yarpağı ilə edilən duşlar adama gümrahlıq verir.

✦1 stəkan qaynar suyun içinə 1 çay qaşığı toz zəncəfil + toz havlıcan + süzmə + bal qoyulduqdan sonra 10 dəqiqə dəmlənməsi üçün gözlənilərək gündə 2 dəfə içilir.

✦4 ərik +2 şaftalı +3 badam tumu çıxarıldıqdan sonra blenderdən keçirilir.Tələsmədən içmək lazımdır.

✦100 qram itburnu + moruq + mərsin yarpağı qarışdırıldıqdan sonra 1 xörək qaşığı alınaraq 1 stəkan suya qoyulub 10 dəqiqə qaynadılır, dəmlənməsi üçün 2 saat gözlənilir. Süzüldükdən sonra 100 qram bal əlavə edilərək hər gün 1 stəkan içilir.

✦Ət qaynadıldıqdan sonra suyu süzülür, içinə bal və bir az sirkə əlavə edilərək şərbət edilir, ac qarına bir stəkan içilir.

✦5 qr havlıcan və zəncəfil qaynadılaraq çay kimi içilir. Bu çay revmatizm üçün də faydalıdır.

✦Pelinotu qaynadıldıqdan sonra şəkər, ya da bal əlavə edilib bir stəkan içilir.

***Bitki çayı hazırlayarkən, xüsusilə, təzə sudan istifadə edilməlidir. Suyunuzu qaynatdıqdan sonra bir-iki dəqiqəlik kənara qoyun. Əvvəl istifadə edəcəyiniz bitkini hazır edin və üzərinə lazımlı miqdarda su əlavə edin. Ümumiyyətlə, 1 desert qaşığı quru və ya bir ovuc təzə ot üçün dörddə bir litr su istifadə etmək lazımdır. Çayın dəmlənməsi üçün 2-5 dəqiqə kifayətdir. Kök bitkilərindən çay dəmləyəcəyiniz zaman eyni miqdarda su və bitkini birlikdə qəhvədana qoyub qaynatma yolu ilə bitki çayı əldə edə bilərsiniz.***

# Bilirsinizmi?

✺Venera planeti yeganə planetdir ki, saat əqrəbinin əksi istiqamətində dövr edir.

✺Havay əlifbasında cəmi 12 hərf var.

✺Dünyada ilk dəmiryolu 1825-ci ildə İngiltərədə çəkilmişdir.

✺Azərbaycan ərazisində məlum olan ən qədim dövlət Manna dövlətidir (e.ə.IX əsr)

✺Dünyada mexaniki qazma usulu ilə ilk neft quyusu 1846-cı ildə Bakı yaxınlığındakı Bibiheybət qəsəbəsində qazılmışdır.

✺Azərbaycanın dəniz səviyyəsindən ən hündür nöqtəsi Bazardüzü (4466 m.), ən aşağı nöqtəsi isə Neftçala rayonu ərazisindədir (-28 m.). Orta yüksəklik 657 metrdir.

✺Azərbaycan dilinə ən yaxın dillər türk,qaqauz, qaşqay və türkmən dilləridir.

✺Hesablamalara görə azərbaycan dilində təqribən 10 min ərəb mənşəli söz vardır. Bunların bir qismi hazırda ərəb dilində köhnəlmiş sayılır və işlənmir.

✺Şuşa şəhəri 1751-ci ildə Qarabağ xanı Pənah xan tərəfindən salınıb və ilk dövrdə Pənahabad adlanıb.

✺Ermənistanın hərbi təcavüzü zamanı ələ keçirilmiş Azərbaycan ərazilərində 927 kitabxana, 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat dağıdılmışdır.

# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Osmanov Ənvər Məcnun oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 578 F nömrəli (kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 noyabr 1997-ci il tarixli 25 saylı qərarı ilə Mıxlıqovaq kənd sakini **Məmmədova Lələzar Əhmədalı qızına** verilmiş İN seriyalı 541 nömrəli **torpağın mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

# 57 il öncə və bu gün

57 il öncə aprelin 12-də Sovet İttifaqı vətəndaşı Yuri Qaqarin dünya tarixində ilk dəfə olaraq süni peyklə kosmosa yollandı. Bu həmin dövr üçün elm sahəsində misli görünməmiş bir hadisə idi. O illərdə kosmosa, süni peyk göndərmək imkanına malik olan yalnız iki ölkə Amerika Birləşmiş Ştatları və Sovet İttifaqı idi. Hər iki ölkə soyuq müharibə münasibətlərində olduqlarından kosmosu fəth edərkən niyyətləri də bəlli idi.




Hərbi sahədə daha üstün olmaq.

Zaman keçdikcə kosmosa can atan ölkələrin sayı çoxaldı. Hazırda dünyanın 30-a qədər ölkəsinin kosmosda rabitə peykləri, bir çox ölkələrin isə kəşfiyyat və digər hərbi məqsədlər üçün nəzərdə tutulmuş peykləri uçmaqdadır.

Qürurverici haldır ki, beynəlxalq kosmos ailəsinə Azərbaycanımız da daxildir. Azərbaycanın əsasən telekomunikasiya üçün nəzərdə tutulmuş peyki də kosmosdadır. Bu yaxınlarda ölkəmizin ikinci peyki də kosmosa yola salınacaqdır.

**"Qəbələ"**

# ALLAH RƏHMƏT ELƏSİN!

"Qəbələ" qəzetinin kollektivi iş yoldaşları **Rais Rəşidova** anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Mərkəzləşdirilmiş Kitabxana sisteminin kollektivi iş yoldaşları

**ARİFƏ XANIMIN**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, mərhumun yaxınlarına və əzəzlərinə dərin hüznlə başsağlığı verir.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydden keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1769